# İKİ XATİRƏNİN İŞIĞINDA

Azərbaycan naşirlərinin müdrikliyi, ağsaqqallığı, elmi ilə seçilən və bu gün mənəvi ucalıq mərtəbəsində olan Şəddad Cəfərov özü doğru deyir ki, Vətəndən uzaqda yaşayıb işləməyin xüsusi məsuliyyəti var. Çünki özgə mühitdə olan hər kəs təkcə ailəsinin məsuliyyətini daşımır, həm də vətəninin və xalqının məsuliyyətini daşıyır. Çünki özgə diyarda fərd olaraq qeyri xalqın nümayəndəsi toplumun diqqətində olur. belə halda əgər sən özgə diyardasansa, tam diqqət mərkəzində olur. həyatının hər tərəfi sanki güzgüdə əks olunurmuş kimi görünür.

Şəddad Cəfərov keçmiş sovet məkanının hansı şəhərində yaşayıb işləyibsə, hətta uzun müddətli ezamiyyətlər zamanı, elmi tədqiqatlar vaxtı, düşdüyü mühiti yaxşı öyrənir. O, mühitin hansı dəyərlər üzərində kökləndiyini müşahidə edib. Və bunu həyat kredosu olaraq fəaliyyətində mütləq nəzərə alıb. Ona görə də onu ruslar, ukraynalılar, belaruslar öz doğmaları kimi qəbul ediblər. Onun ətrafında toplanmağı, onun mühitində olmağı özlərinə fəxr biliblər. Kiməsə elə gələ bilər ki, belə hörmət qazanmağın, nüfuz sahibi olmağın insanın taleyində xüsusi rolu olan keyfiyyətlərə sahiblənməyin qeyri-adi sirləri var. Elə bizim özümüzə də həyatın asanlıqla qavranılan bir tərəfi kimi bu məsələ sirli görünə bilər. Şəddad Cəfərov özü bu məsələnin şərhində heç bir sirr olmadığını bildirsə də, onu tanıyan, onun mühitində olmuş rus mütəxəssisləri Şəddad Cəfərova səmimi münasibətlərində bu "sirri" açmaqda heç bir çətinlik çəkmir, qısqanclıq göstərmirlər.

Biz insan həyatının görünməyən tərəflərini müasirlərin münbasibətində qavratyır, görə bilirik. Sevda Əlibəylinin istinad elədiyi çox maraqlı bir məqam məsələnin mahiyyətinə daxil olmağa əsas verir. Müəllif "İlk poliqrafçı alim" kitabında Şəddad Cəfərovdan sonra "Ulyanovskaya pravda" nəşriyyatının direktoru olmuş Yura Vixaylevskinin çox səmimi xatirə-düşüncələrini təkcə ədəbi xronika xatirinə yox, gələcək nəsillərin yaddaşına ötürmək baxımından dəyərli hesab edirik: "Yura Vixaylevski- Yulya Vixaylevskaya: - Ulyanovskda Şəddad Muğdatoviçdən sonra nəşriyyata rəhbərlik etmək mənə həm asan idi, həm də çətin. Ona görə asan idi ki, geridə qalan nəşriyyatı ittifaq səviyyəsində tanıtmışdı. Ən başlıcası, orda illər uzunu hökm sürən ayrı-seçkiliyə son qoymuş, kollektivi mehriban bir ailə kimi birləşdirə bilmişdi.

Ona görə çətin idi ki, kollektiv onu çox sevirdi. Mənimlə işləmək onlara çətin idi. Dəhşətə gəlirdim ki, əsasən ruslardan ibarət olan kollektiv başqa millətdən olan direktoru necə böyük məhəbbətlə sevir. Əlbəttə, o, böyük məhəbbəti intellekt səviyyəsi, yüksək peşəkarlığı və idarəetmə bacarığı sayəsində qazanmışdı. Bunları bildiyimdən mən də məhz onun idarəetmə metodundan istifadə etməyə başladım və yaxşı ənənələrini davam etdirdim. Beləliklə, kollektivlə dil tapdım və bu günə kimi fəaliyyətimi davam etdirirəm.

Kollektiv təkcə Şəddad Muğdatoviçin simasında bütün azərbaycanlıları sevirdi. Onunla birgə işləyənlər indi də onu böyük məhəbbətlə sevirlər.

Mən də Bakıyla bağlı insanlardanam. Moskvada Poliqrafiya İnstitutunu bitirdikdən sonra təyinatla Bakıda fəaliyyətə başlamışam. Blank sexində mexanik işləyəndə Şəddad müəllim "26-lar" mətbəəsinin baş mühəndisi idi. Məni öz yanına apardı. "Yeni kitab"a direktor gedəndə məni də apardı. "Kommunist"ə baş direktorun müavini gedəndə yenə də məni apardı. Sanki ona təhkim olunmuşdum. Ulyanovskda işləyəndə sıx əlaqəmiz var idi. Şəddad Muğdatoviçin Bakıya qayıdışı mənim üçün şans yaratdı. "Kommunist" nəşriyyatında baş mühəndis işləyirdim. Yalnız Şəddad müəllimin xeyirxah səyi sayəsində Birbaşa "Ulyanovskaya pravda"ya baş direktor təyin olundum. Şəddad isə poliqrafçı alim və səriştəli mütəxəssis olaraq hələ də layiqli yerini tuta bilməyib.

O, vətənini çox sevir. Elə bu sevgiyə görə Ulyanovskdakı vəzifə kreslosunu təhvil verdi. Dəfələrlə Rusiyadan təklif alsa da, vətənindən ayrılmaq istəmir.

Gəncliyim Bakıyla bağlıdır. Ömrümün 20 ilini Bakıda yaşamışam. Burda dost-tanışım çox olduğundan hərdən gəlib görüşürəm. İlk axtardığım şəxslərdən biri Şəddad müəllim olur. Poliqrafiya Azərbaycanda sürətli inkişaf yolundadır.

Yaxşı mütəxəssislər yetişib, özəl mətbəələr açılıb. Amma birgə olanda görürəm ki, onlar hər zaman Şəddad müəllimə ehtiyac duyur, məsləhətləşirlər. O, əvvəllər olduğu kimi yenə də müəllim şərbiylə biliyini heç kəsdən əsirgəmir. Haqqında kitab yazılmasını alqışlayıram. Belə insanların ömür yolu, səmərəli fəaliyyəti gələcək nəsillərə örnək olmalıdır. Təqdimat günündə görüşənədək!" Mətndən göründüyü kimi, Yura Vixaylevski Bakıya bağlı olub, Bakını sevib. Gəldiyi ilk vaxtlardan Şəddad Cəfərovla tanışlıq, sonra da doğmalıq münasibətləri yaddaşına, varlığına hopub. Mahiyyətcə onun danışdıqlarından belə bir təəssürat oxucunun yaddaşında özünə əbədi yer eləyir; yəni belə insanı necə sevməmək olar, belə insanla necə dotluq etməmək olar? Belə insanın yaxınlığında olub ondan necə öyrənməmək olar? Haqlı olaraq Yura Vixaylevski Şəddad Cəfərovu özünün müəllimi hesab edir. Əslində, elə bu düşüncələri təkrar olaraq oxuculara çatdırmaqda ziyalı ruslara Azərbaycana sevgi hissi ilə bağlanmış, Azərbaycanla doğmalaşmış ruslara münasibətimizi ifadə etmək istəyirik. Yura Vixaylevskini təkrar-təkrar Azərbaycana turistr kimi gəlməyə vadar edən nostalji hisslərin bir qaynağı da elə Şəddad Cəfərov və Şəddad Cəfərov kimi adamlardır.

Yura Vixaylevski Azərbaycana turist kimi öz xanımı ilə gəlir. Onun da düşüncələri maraqlıdır. Bakıya ilk gəlişim Şəddad Cəfərovla görüşün təəssüratı mənəvi əlaqələrimizin tarixi üçün maraqlıdır. Əlbəttə, bu təəssüratın özündə də Şəddad Cəfərov baş obraz kimi öz yerini sevgi ilə hifz edir: "-Yura azərbaycanlıların qonaqpərvər və istiqanlılığı barədə hər zaman danışır. Amma bunları öz gözlərimlə görüb şahidi olanda heyran qaldım. Şəddad Muğdatoviçi də ilk dəfə görürəm. Yuranın dediyi kimidir: səmimi, xeyirxah, müdrik. Poliqrafiyanın isə əsl alimidir. Mən özüm də kitab ticarəti ilə əlaqəli olduğumdan poliqrafçı alim və iqtisadçı kimi ondan çox şey öyrəndim. Yəqin ki, əlaqələrimiz bununla bitmiyəcək. Təəssüflənirəm ki, sabah geri qayıdırıq. Azərbaycanlıların qonaqpərvərliyindən çox razı qaldım. Çalışacağam Yura ilə tez-tez gələk. Gələn görüşədək!" Xatirə düşüncələri ayrı-ayrı, hissə-hissə təhlilə çəkmədik və bunu bilərəkdən etdik. Çünki, oxucuda Azərbaycana sevgi bəsləyən, milliyətcə rus ziyalı ailəsinin düşüncələrindən alınan təəssüratı dağıtmağa qıymadıq. Bəzən elə məqamlar olur ki, oxucu faktın özündən daha əhatəli qənaətlər hasil edir. Və bu imkanı oxucudan almaq insafsızlıq olardı.

"İlk poliqrafçı alim" kitabında diqqətimizi cəlb edən və ədəbi qəhrəmanımızı yaxşı tanıyan daha bir mütəxəssisin düşüncələri yer alıb. Bu uzun müddət Şəddad Cəfərovla birgə işləmiş Əziz Məmmədovun düşüncələridir.

Əziz Məmmədov Moskva Poliqrafiya məktəbinin yetirməsi kimi Şəddad Cəfərovun nəyə qadir olduğunu, onun mütəxəssis kimi necə çevik düşüncə sahibi olduğunu, ən başlıcası, onun insanlarla münasibətinin əsasında nəyin dayandığını yaxşı bilirdi.



Mətndən belə başa düşülür ki, Sevda Əlibəyli kitab üzərində işləyərkən Vixaylevskilərlə Şəddad Cəfərovun yanında görüşüb. Onları Bakıda qonaq kimi müşayət edən Şəddad Cəfərovun keçmiş iş yoldaşı, dostu Əziz Məmmədov olub. Elə ona görə də, "İlk poliqrafçı alim" kitabının müəllifi o vaxt Torpaq və Xəritəçəkmə Komitəsinin Bakı Kartoqrafiya fabrikinin baş mühəndisi işləyən Əziz Məmmədovun düşüncələrinə də xüsusi yer ayırır: "Yuranı tələbəliyimin ilk illərindən tanıyıram. Yataqxanada da bir yerdə qalmışıq. O, institutu məndən iki il əvvəl bitirdi. Bakını Yuraya elə sevdirmişdim ki, təyinatını da paytaxtımıza aldı. Sonra Bakıya elə bağlandı, 20 ilə yaxın burda işlədi. Yura institutu məndən qabaq bitirib Bakıya gələndə ilk tanış olduqlarından biri Şəddad Cəfərov olur. Özü etiraf edir ki, onun diqqət və qayğısını bu gün də unuda bilmir. Təyinatımı "Kommunist" nəşriyyatına alıb işə başlayanda Şəddad müəllim "26-lar" mətbəəsində baş mühəndis idi. "Kommunist" nəşriyyatında şöbə müdiri, sex mühəndisi, sex rəisi, baş mühəndisin müavini və s. vəzifələrdə işləmişəm. Şəddad müəllim nəşriyyata direktor müavini gələndən sonra yeni qəzet korpusu tikilib istifadəyə verildi. Korpusda yeni avadanlıqların quraşdırılmasında Şəddad müəllim Yurayla mənim xidmətimi indi də qeyd edir". Əziz Məmmədovun düşüncələrinə Yura ilə bağlı xatirələrlə başlaması təsadüfi deyil. O, Şəddad Cəfərovun mühitindəki sərhədsizliyi göstərmək üçün diqqəti Yura ilə bağlı tanışlıq faktına bu səbəbdən cəlb edir. Və sonra Şəddad Cəfərov haqqında təəssüratlarını danışır: "Şəddad Cəfərovla eyni institutun məzunu olmağımla hər zaman fəxr edirəm. Doğrudur, ondan qabaq da bizim Poliqrafiya İnstitutunu bitirən azərbaycanlılar oluşdu. Lakin Şəddad Cəfərov həmin insitutun ilk azərbaycanlı aspirantı oldu. Sonra da elmi iş götürüb müdafiə etdi, alim oldu. Bununla hər bir həmvətənli fəxr etməlidir. Mən isə həmin institutun məzunu olaraq ikiqat fəxr edirəm. Ulyanovskdakı fəaliyyət dövründə dəfələrlə ezamiyyət götürüb yanına getmişəm. Onun yad ölkədəki nüfuzu adamın qəlbində iftixar hissi oyadırdı. Yuranın dediyi kimi, kollektivin yaşlı üzvləri indi də onu böyük məhəbbətlə xatırlayırlar". Göründüyü kimi, o, Şəddad Cəfərovu Ulyanovski şəhərində də dəfələrlə müşahidə etmək, görmək imkanı olub. Ona rusların münasibətini müşahidə etmək, belə bir fikrini əsaslandırmağa imkan verir ki, mənəviyyat sərhədsizliyi insanın həyatını dah çox zənginləşdirir. İş elə gətirir ki, Əziz Məmmədov sonra "Azərbaycan" nəşriyyatında dostu ilə birgə işləməli olur. Görünür, bu səbəbdən də onun düşüncələri çox səmimi təsir bağışlayır: "Şəddad müəllim Bakıya qayıdandan sonra 3 saylı mətbəədə direktor işləyəndə mən də onunla işlədim. "Azərbaycan" nəşriyyatına baş direktor gədəndən sonra mətbəədə altı ay onu əvəz etdim. Sonra məni özünə müavin apardı. Ən ağır illərdə birgə işlədik. Şəddad müəllim çətinlikləri dəf etmək üçün Rusiyadakı bütün dost-tanışlarından istifadə edir, xarici şirkətlərlə iş birliyi qururdu. Türkiyənin məşhur iş adamı İlham İşbilənlə "Azərzaman" birgə müəssisəni yaratmağa nail oldu. Türklər çap maşınından istifadə edə bilmirdilər. Şəddad müəllim birgə müəssisənin şərtlərinə əsasən nəşriyyatın qəzet korpusunda onlara avadanlıqlarının qurulması üçün yer verdi. Digər şərtlə əsasən bizim qəzet-jurnallardakı bayraq, qəzetlər, kitablar və dərsliklər rəngli çap ediləcəkdi. Qəzet korpusunda onların avadanlıqları istismara verildi. Şəddad müəllim müəssisənin texniki direktorluğunu mənə həvalə etdi. Beləliklə, "Zaman" qəzeti nəşrə başladı. Qəzetin ilk sayının çapdan çıxmasının sevinci indi də yadımdadır. Rəngli qəzet əl-əl gəzirdi.

Şədddad müəllimin nəşriyyatdan getməsiylə əlaqədar bütün bu işlər yarımçıq qaldı". Həyat göstərir ki, yerində olan, işini bilən kadrları yaxşı tanıyan rəhbər işçi qərəzli şəkildə öz işindən kənarlaşdırılanda onun başladığı böyük işlər yarımçıq qalır. Əziz Məmmədov da əslində, bu təəssüfü çatdırmağı özünə borc bilir. Ən azı ona görə ki, gələcək nəsillər həyatın belə qaranlıq tərəflərindən də nəticə çıxara bilsinlər: "Şəddad Cəfərov mənə ali məktəb auditoriyalarında heç zaman nə dərs deyib, nə mühazirə oxuyub. Amma onu özümə hər zaman müəllim sayıram. İdarəetmə metodu hər kəs üçün bir dərsdir. Bu dərsdən bütün fəaliyyətim boyu faydalanmışam. Müəllimimin yubiley yaşını təbrik edir, özünə və ailə üzvlərinə cansağlığı, könül xoşluğu arzulayıram". Bilirəm ki, hisslərin doğmalığı bu gün də ədəbi qəhrəmanımızın təbiətində yaşayır. Çünki Əziz Məmmədovun da qeyd etdiyi kimi, nə qədər xalqına sədaqətlidir, bir o qədər də dostlarına sadiqdir.

Hər halda Əziz Məmmədovun düşüncələrinin səmimiyyəti məni inandırdı. Çünki onun özü də təbiət etibarilə çox istiqanlı bir insan kimi mənim də yadımda qalıb.

90-cı illərin əvvəllərində "Azərbaycan" nəşriyyatında qonşu otaqlarda işləmişik; o "Zaman" qəzetində, mən "Həyat" qəzetində. Və Əziz Məmmədovla mənim aramdakı isti münasibətin əsasında Şəddad Cəfərov müdrikliyinə hörmət və ehtiram dayanıb.

*11.03.2020*

*Əli Rza XƏLƏFLİ*